**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli 252 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanlarının repatriasiya Qaydaları”nda dəyişiklik edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli 252 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1132; 2014, № 5, maddə 562) ilə təsdiq edilmiş “İnsan alveri qurbanlarının repatriasiya Qaydaları”nın 5.1.1.3-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5.1.1.4-cü yarımbənd əlavə edilsin:
“5.1.1.4. şəxsin gələcəkdə yenidən qurban olmaq riskinin qiymətləndirilməsi və qarşısının alınması istiqamətində preventiv tədbirlərin görülməsi.”.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

**Bakı şəhəri, 1 dekabr 2021-ci il**
**№ 378**